# Uşağın şəxsiyyətinin formalaşmasında ailə tərbiyəsinin rolu

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin prinsiplərindən biri də valideyn və övlad arasında olan tərbiyə metodunu öyrənmək və onu təbliğ etməkdir. Səfər etdiyimiz ailələrdə valideyn və övlad arasında olan tərbiyə məsələlərinə diqqət yetirdikdə aşkara çıxır ki, bu sahədə nə qədər çatışmazlıqlarımız vardır. Əğər biz bunlara fikir verməsək, ötəri yanaşsaq günü-gündən problemlər artar və həlli çətin bir məsələyə çevrilər.

Lakin fəxrlə deyə bilərik ki, bir sıra ailələr övladlarını gələcək həyata layiqli vətəndaş kimi hazırlayır, onlarda hümanizm, vətənpərvərlik hissləri çox güclüdür. Belə valideyinlər ailədə uşaqlarını tərbiyə edərkən müasir tərbiyə üsularından istifadə edirlər. Bu zaman uşaqlarda təşəbbüskar, yaradıcı, böyüklərə və kiçiklərə hörmətlə yanaşmaq kimi pirinsiplər geniş şəkildə yer alır. Belə ailələrdə böyüyən vətəndaşlara isə nəinki ailədə, yaşadığı bölgədə, hətta bütün dünyada bəşəriyyətin ehtiyacı var.

Humanizm prinsipi ilə böyüyən uşaqlar hər zaman insanlara, təbiətə, canlılara qarşı laqeyd qala bilmirlər. Çünki onların vücudlarında insanlara, həyata, bütün canlılara qarşı olan məhəbbət, sevgi münasibətləri aşıb-daşır. Səfər etdiyimiz bəzi ailələrdə bu prinsiplərlə tərbiyə alan, böyüyən uşaqlar bu gün də bizimlə əməkdaşlıq edirlər. Biz belə uşaqlardan Samir Əmirşahlının, Səkinə İbrahimlinin, Qorxmaz Veysəllinin və bir çox uşaqların adını çəkə bilərik.

UADM-nin işci heyəti daim rayon ərazisinə və kəndlərə səfərlər təşkil edərək tərbiyə işində, istərsə də maddi tərəfindən çətin vəziyyətdə yaşayan ailələrin sosial problemləri ilə maraqlanır. Uşaqlarla və yeniyetmələrlə söhbət zamanı onların üzündə olan emosional gərginlik və yaxud insanlara qarşı aqressiv münasibət yaşadığının da şahidi oluruq. Belə ailənin tərbiyə üsulu cox şeylərdən xəbər verir.

Avtoritar ailələrdə böyüyən uşaqlar daimi olaraq yerli-yersiz valideynin nəzarəti altında olur. Belə ailələrdə valideynlər heç vaxt övladlarının fikir və istəklərini nəzərə almır. Valideynlərin fikrincə uşaqlar onların dediklərinə məcburi əməl etməlidirlər. Nəticədə günündən böyüyən uşaqlarda böyüklərə qarşı soyuq münasibət formalaşır. Belə hallar adətən kənd yerlərində daha çox olur. Sonda ən böyük zərbə qız uşaqlarına və qadınlara dəyir.

Mərkəzimiz keçən il Tüntül kəndində yaşayan bir ailəyə səfər etmişdi. Səfər zamanı gənc ana ilə tanış olduqda o, başına gələn ən böyük faciəni ürək ağrısı ilə danışdı. Təhsil almaq ananın ən böyük arzusu olub. Ailəsi isə onun təhsil almaq istəyini ürəyində qoyub. Özünün dediyinə görə onun həmyaşıdları müəllim yanına hazırlığa gedərkən o, imtahan üçün hazırlanan test suallarına özü hazırlaşıb. Gənc xanım tam orta məktəbi bitirdikdən sonra Bakı Şəhər 2 saylı Tibb Texnikumuna qəbul olur. Texnikuma qəbul olunduqdan sonra dərslər başlananadək qonşu kənddən qıza elçi gəlir. Ailə isə qız nədir, oxumaq nədir—deyərək onu zorla ərə verirlər.

Nəticədə həyatında onun üçün uğursuzluq baş verir. Uğursuzluğun əsl səbəbi isə serebral iflic xəstəliyi olan uşaq dünyaya gətirməsi olub. Beləliklə nigah pozulub. Hazırda bununla eyni və buna bənzər tale ilə yaşayan yüzlərlə gənc vardır. Onlar övladlarına qarşı valideyin etinadsızlığının qurbanı olmuşlar.

Dövrümüzdə aktual problemlərdən biri də valideyn himayəsindən və diqqətindən tamamilə kənarda qalmış uşaqlardır. Valideyn himayəsindən və diqqətindən kənarda qalmış uşaqlar isə əksərən liberal tərbiyə üsulu ilə yaşayan ailələrdə böyüyür . Çox vaxt liberal tərbiyə üsullu ailələrdə böyüyən uşaqlar gələcəkdə cinayətə meyilli uşaqlar olurlar. Mərkəzin işçi heyəti belə ailələri ciddi surətdə nəzarət altına alır və bu cür ailələrdə böyüyən uşaqları və valideynləri mərkəzə cəlb edərək onlarla daim söhbətlər aparır.

UADM-nin işçisinin səfər etdiyi ailələrdə aşkara çıxartdığı hadisələrdən biri də valideynlər övladlarını məktəbə göndərməyib əvəzinə iş adamlarının yanına göndərib pul qazanmaq tələb etmələridir. Hətta, belə Valideynlər etdikləri hərəkəti cəmiyyətdə fəxrlə danışırlar. Onlar ciddi nöqsanlara yol verdiklərini anlamırlar Qanunla bu uşaqları işəgötürənlər cinayət daşıyırlar. Çünki hər bir uşağın əmək qabiliyyəti üçün yaş həddi var. Mərkəz belə halları aşkar etdikdə RİH-nin qəyyumluq və himayədarlıq şöbəsinə, rayon polis şöbəsinə məlumat verir. Axı uşaqlar bizim gələcəyimizdir.

**Günay KƏRİMOVA,**
**Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin metodisti.**

# TƏQVİMDƏN SƏTİRLƏR

**15 iyul:** Xalq rəssamı, heykəltəraş **Cəlal Qaryağdı** (1915—2001) anadan olmuşdur. Heykəltəraşlığın müxtəlif janrlarında əsərlər (monumental heykəl, portret, büst, barelyef) yaratmışdır. Böyük Vətən müharibəsi illərində cəbhə qezetlərində siyasi karikaturalarla çıxış etmişdir. Nəriman Nərimanovun, M. P. Vaqifin və M. Ə. Sabirin heykəllərini, X. B. Natəvanın, Q. Qarayevin, Y. Məmmədəliyevin və F. Əmirovun büstlərini yaratmışdır.

Dünya incəsənətinin ən görkəmli nümayəndələrindən biri, holland boyakarı **Harmens Rembrand** (1606—1669) anadan olmuşdur. 800-ə qədər tablo, 2000 rəsm əsəri, 300 ofort qoyub getmişdir. Ömrünün son illəri ağır şəraitdə keçmişdir. Amsterdamda vəfat etmiş, yurdsuzlar qəbristanında dəfn olunmuşdur.

**16 iyul:** Görkəmli estrada müğənnisi, xalq artisti **Mirzə Babayev** (1913—2002) anadan olmuşdur. Bir sıra filmlərdə çəkilmişdir.

**17 iyul:** Böyük Vətən müharibəsində faşizm üzərində qələbənin mühüm mərhələsi başlanmışdır. Həmin müharibə dövründə ən iri miqyaslı vuruşmalardan biri **Stalinqrad** vuruşması (1942—1943) olmuşdur. Vuruşmanın birinci mərhələsi müdafiə, ikinci mərhələsi hücum xarakteri almışdı. Əvvəlcə düşmən qüvvələri sovet ordu hissələrindən həm canlı qüvvə, həm də döyüş texnikasına görə çox üstünlüyə malik idi. Buna baxmayaraq qanlı döyüşlər sovet qoşunlarının qələbəsi ilə nəticələndi. Düşmən ordusu ölənlər, yaralananlar, əsir və itkin düşənlərlə birlikdə təqribən 1,5 milyon əsgər və zabit itirdi. 1500 nəfər azərbaycanlı "Stalinqradın müdafiəsinə görə" medalı ilə təltif olunmuşdur.

Azərbaycan Səfəvi dövlətinin banisi, sərkərdə, şair **Şah İsmayıl Xətai** (1487—1524) anadan olmuşdur. 1501-ci ildə, 14 yaşında özünü şah elan etmişdir. Ayrı-ayrı xanlıqlara bölünmüş Azərbaycanı vahid dövlət kimi birləşdirmək uğrunda mübarizə aparmışdır. Şeirlərinin çoxunu ana dilində yazmışdır.

Almaniya kansleri, görkəmli dövlət xadimi **Angela Doreteya Merkel** 1959-cu ildə dünyaya gəlmişdir. Almaniyanın birləşdirilməsində fəal rolu olub.

**18 iyul:** Xalq rəssamı, əməkdar incəsənət xadimi, Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı **Tokay Məmmədov** 1927-ci ildə anadan olmuşdur. Azərbaycan Rəssamlar İttifaqı İdarə Heyətinin sədri olmuşdur. Yaradıcılığında monumental heykəltəraşlıq mühüm yer tutur.

**21 iyul:** Məşhur Amerika yazıçısı, Nobel mükafatı laureatı **Ernest Heminquey** (1889—1961) anadan olmuşdur. Bir müddət jurnalistlik etmişdir. "Qadınsız kişilər", "Əlvida silah" romanları, "Qoca və dəniz" povesti məşhurdur. Ömrünün son illərində dərin ruhi sarsıntı keçirmiş və intihar etmişdir.

**22 iyul:** Azərbaycan milli mətbuatının yaranması günüdür. Bu tarix 1875-ci ildə ilk dəfə ana dilində çap olunan **"Əkinçi"** qəzetinin tarixi ilə bağlıdır.

Fizika-riyaziyyət elmləri doktoru **Zərifə İsgəndərzadə** 1935-ci ildə dünyaya gəlib. EA-nın Fizika İnstitutunda laboratoriya müdiri vəzifəsin-də işləmişdir. Pedaqoji fəaliy-yət göstərib. Tədqiqatları yarımkeçiricilərə aiddir.

# Qəbələ-Ağdaş avtomobil yolunun tikintisi bu ilin sonunadək başa çatacaq

Azərbaycanda mühüm infrastruktur layihələri icra edən "AzVirt" MMC Qəbələ—Ağdaş avtomobil yolunun tikintisini davam etdirir.

Bu yolun tikintisinə 2011-ci ilin iyulunda başlanmışdır. Dördzolaqlı yolun uzunluğu 22 kilometr, hərəkət zolağının eni 3,5 metrdir.

Layihəyə görə, yolda 1,1 milyon kubmetr həcmində torpaq işləri görüləcək, drenaj borular qoyulacaq və polad məhəccərlər quraşdırılacaq. Yol boyu 1 körpünün və 5 piyada keçidinin tikintisi də nəzərdə tutulmuşdur.

Tikinti işlərinin cari ilin sonunadək tamamlanması planlaşdırılır.

# Azərbaycanda qiyabi təhsil birdəfəlik ləğv olunur

***Qiyabi təhsil tədricən distant təhsillə əvəz ediləcək***

Azərbaycanda ali təhsil müəssisələrində qiyabi təhsil üzrə qəbul 2015-ci ildən dayandırılacaq.

Bu barədə APA-ya açıqlamasında Azərbaycan Milli Məclisinin Elm və Təhsil Komitəsinin sədri Şəmsəddin Hacıyev bildirib.

Komitə sədri qeyd edib ki, bununla bağlı qanunvericiliyə dəyişiklik ediləcək və o vaxta kimi qiyabi təhsil tədricən distant (məsafədən təhsil) təhsillə əvəz olunacaq. «Çünki bütün dünyada belə qəbul olunub. Keçmiş SSRİ ölkələri istisna olmaqla, dünyanın heç yerində qiyabi təhsil yoxdur, yalnız distant təhsil var. Bizdə qiyabi şöbələrə qəbul olunan sonuncu şəxslər təhsillərini başa vurduqdan sonra—2015-ci ildən etibarən bu prosesi tədricən həyata keçirmək olar».

Təhsil Nazirinin qiyabi təhsil alanların pedaqoji fəaliyyətinə qoyduğu qadağaya da münasibət bildirən Ş.Hacıyev deyib ki, bu birbaşa icra edici orqanın səlahiyyətində olan prosesdir, qanunvericiliyə hes bir aidiyyəti yoxdur.